

*Zəka Vilayətoğlu*

# MEŞİN ÇANTA

**Hekayə**

Səksən il öncə aldığı əmanəti, qarı, səhərə yaxın, amansız tənhalığın, bədəninin hər yerinə gənə kimi daraşmış, sarınmış ağrıların, giziltilərin, zoqqultuların əlindən güclə qoparıb Tanrıya qaytardı.

Göylər, öz can əmanətini alıb apardıqdan sonra, kimsəsiz, alaqaranlıq otaqda, döşəməyə atılmış isti və təmiz yorğan-döşəyin arasında qupquru, sopsoyuq və xəstəlikdən şişərək, öz adi halından çıxan cansız bədən qalmışdı.

Otaqdakı ölüm səssizliyi və qarının meyiti çox vahiməliydi. Bu vahiməli səssizliyi, bir az sonra qarının pişiyinin yazıq miyoltusu pozdu. Pişik qarının ayaqucunda sərilib yatmışdı. Elə bil o, sahibinin öldüyünü qəfil hiss edib ayılmışdı.Yazıq-yazıq miyoldayıb, qarının, bum-buz və şişkin əllərini yalayır, onu oyatmağa çalışırdı.

Qarı oyanmaq bilmirdi. Pişik yeriyib qarının sinəsinə çıxdı və əvvəlcə, diqqətlə onun üzünə baxdı; qarının gözləri açıq halda tavana zillənib qalmışdı.Pişik onun üz-gözünü imsiyərək, yalamağa, təzədən yazıq-yazıq miyoldamağa başladı. Sonda qarının oyanmadığını görüb, otağın qapısına tərəf atıldı. Sağ pəncəsiylə köhnə dəmir qapını vurub, cırmaqlamağa başladı. Sanki qarının ölüm xəbərini qonşulara çatdırmaq istəyirdi. Doğrudur; hazırda baş verənləri elə bu cür də yozmaq mümkün idi; amma pişik, qarının öyrətdiyi kimi bayıra çıxıb, öz təbii ehtiyacını ödəməyə can atırdı. Həmişə belə idi; pişik işəmək,.. istəyəndə özünü qapıya tərəf atır və qapını cırmaqlayır, həyəcanla miyoldayaraq, sahibini xəbərdar edirdi. Qarı da, öz ağıllı pişiyini xoş sözlərlə oxşaya-oxşaya gəlib qapını açırdı...

Pişik hələ də qapını cırmaqlayır, tez-tez qarıya tərəf boylanır, miyoldayırdı.

Qarı nə dinir, nə də tərpənirdi. Pişik isə ağrıdan ölürdü. Buna baxmayaraq, qarının təlim-tərbiyəsindən çıxmamağa çalışırdı. Amma, deyəsən, bu mümkün olmayacaqdı.

Hə, elə belədir ki, var; pişik, çömbəlib, düz qapının astanasına işədi və ardınca da daha ağır və qətran kimi qatı və qara yükünü yerə qoyunca, xoşagəlməz qoxu otağı bürüdü.

Bununla da pişik miyoltusunu kəsdi və günahkar və qorxaq baxışlarla, çoxdan ölmüş sahibinə tərəf baxdı: tək bircə ağız miyoldadıqdan sonra, ehtiyatla onun yatağına yaxınlaşdı və təzədən qarının ayaqucunda qisilib yatdı.

Qarı canını tapşırana yaxın yatağını əməlli-başlı bulamış, batırmışdı. Dünən axşam zorla yediyi şorabadan sonra bayıra çıxmamışdı və bayıra çıxsaydı da bu xoşagəlməz iş baş verəcəkdi.

Deyilənlərə görə, insanların hamısında, ölərkən belə bir vəziyyət baş verir.

Divarlarının suvağı çoxdan tökülmüş, döşəməsi çoxdan bərbad hala gəlmiş evin havası çox ağırlaşmışdı. Köhnəlmiş kanalizasiya sistemindən gələn kif qoxusuyla birgə qarının yatağından və qapının çənədindəki pişik nəcisindən gələn pis qoxu biri-birinə qarışıb, otağın, onsuz da ağır olan havasını, dəhşətli dərəcədə ağırlaşdırmışdı. Qarıya soyuq olmasın deyə kip bağlanmış qapı- pəncərədən, azacıq da olsa hava girmirdi. Saralmış, qocalmış, köhnəlmiş otağın özünün, bu dəm adama elə gəlirdi ki, bu dəhşətli üfunətdən bağrı çatlamağa gəlir və otaq, adam kimicə, pəncərədən görünən bağçaya həsrətlə baxır. Bu anı, bu istəyi təsəvvür etməmək mümkün deyildi və bu üfunəti qovub, həmin bağçadan, çöldən-bayırdan bircə udum təmiz hava almaq üçün bir insan əli gərək idi ki, pəncərəni azacıq aralasın.

Qarı otuz ilə yaxın idi ki, tənha yaşayırdı. Yeganə oğlu otuz il əvvəl anasını atıb Uzaq Şərqə getmiş və ordan- Vladivostok deyilən yerdən anasına, hələ Sovetlər vaxtında bir məktub yazmışdı.Yazmışdı ki, gəmiçiliklə məşğuldur və dolanışığı, gün-güzəranı ürəkaçandır. Dalısınca da yazmışdı ki, bir rus qızıyla evlənib. Özgə bir şey yazmamışdı. Qarı da hamıdan, hər kəsdən üz döndərib, hərdən ac, hərdən tox qarınla, çətinliklə də olsa, ömrün zirvəsinə doğru qalxmağa başlamışdı. Hərdən, ömrün çətin yoxuşlarında ayaq saxlayır, oturub nəfəsini dərir və qalın-qalın dəftərlərə nəsə yazırdı. Əslində o ”nəsə”ni yazmağa indi yox, lap gənclik illərindən başlamışdı.

Gənclik illərindən üzübəri yazdıqlarını da, öz canından artıq qoruyub saxladığı iri, meşin çantada gizlətmiş, saxlamış, indiyəcən bir kimsəyə göstərməmişdi. İnsanlara etibarını çoxdan itirmiş qarı hara gedirdisə həmin çantanı da özüylə götürürdü. Hətta çörək almaq üçün dükana gedəndə də. Amma kimsə bilmirdi ki, qarının çiynindəki bu ağır çantada nə var.

Qarının bu şəhərdə bir kimsəsi yox idi; belə deməyə əsas verən o idi ki, bu otuz ildə onun qapısını kiminsə (qonşulardan savayı) açdığını görən olmamışdı. Ən pisi də o idi ki, onu hamı bir rus qarısı hesab edirdi. Onun rusca çox səlist, azəri türkcəsində isə bir qədər çətinliklə danışması, eyni zamanda onun pişiyə meyilliliyi buna əsas verirdi. Qarının kimliyini dəqiq bilməyənlər bura sonradan köçüb gəlmə adamlar idilər. Əvvəllər qarının qonşuluğunda daha çox rus və rusdilli azərilər yaşayırdılar ki, onların da, demək olar, hamısı köçüb başqa yerlərə getmişdilər.

Məlum məsələdir ki, təzə gələn qonşularla qaynayıb qarışmayan qarı öz meylini pişiklərə salmışdı. Qarı lap çoxdan pişik saxlamağa başlamışdı və onun yeganə dostu, sirdaşı pişiklər idi. İndi ayaqucunda yatan ala pişik qarinin ən sonuncu pişiyi idi. İndiyəcən saxladığı pişiklərdən qəşəngi, ağıllısı və tərbiyəlisi də, elə bu pişik idi. Öldüyü günəcən yeməyinin çoxunu və yaxşı hissəsini qarı bu pişiyə yedirmişdi. Hətta dünən axşamüstü, on altı il əvvəl oğulluğa götürdüyü adamın gətirdiyi isti, dadlı ev xörəyinin də yarısını pişiyin qabağına qoymuşdu. Ölümlə həyat arasındakı daracaqda çırpınmasına, zarımasına baxmayaraq, sevimli pişiyini unutmamışdı qarı.

On altı il öncəyə qədər dövlətdən aldığı cüzi təqaüd hesabına birtəhər dolanan qarı bircə dəfə də öz taleyindən, dolanışığından şikayətlənməmişdi. Ac qalanda, pulu tükənəndə də kimsəyə bildirməmişdi bunu. Möhkəm iradəsi, qüruru, kiminsə qarşısında onu əksilməyə, alçalmağa qoymamışdı. Beləcə kimsəyə bir söz demədən, sirrini açmadan yaşayır və elə hey nəsə yazmağına davam edirdi. Hərdən də yazdığı dəftər qalağını stol üstə səliqəylə yığır, bir-bir varaqlayır, xoşuna gələnləri sonacan oxuyurdu.

On altı il öncə qarının qapısını döymüşdülər. Qapını açınca, qonşusu Alıhüseyni görmüşdü qarı. Alıhüseynin yanında bir cavan kişi də vardı ki, ədasından yer cırılırdı. Bununla bağlı, görünür, ona haqq verən şeylər vardı ki, bu da onun uca boyu, insafən yaraşıqlı, gur, səliqəylə daranmış saçları, gözəl formada düzəldilmiş, daranmış qalın, ilk baxışdan diqqəti cəlb eləyən bığları və bir də qara, qaynar gözləri idi. Elə ilk qarşılaşmada, ciddi davranışı, baxışları və ümumi zahiri görünüşüylə onu yüksək vəzifəli şəxs hesab etmək olardı. Əslində bizim bu tənha qarımız da elə bu cür zənn eləmişdi və daxilindən gələn yüksək mədəniyyətlə gələnləri salamlamışdı. Eyni zamanda ilk dəfə gördüyü, görən kimi də çox xoşlandığı bu adamdan, niyəsə utanıb, cavan, ərgən bir qız kimi nazlanmışdı da. Bunu Alıhüseyn də, yanındakı adam da o dəqiqə hiss eləmişdi və Alıhüseyn öz ana dilində, astadan yanındakına demişdi:

-Anası ölmüş, nə təhər də sənə naz satır, a Cavanşir! Elə bil altmış yaşında qarı deyil. Özü də, allahımız haqqı səni görən kimi belə nazlandı. Gör neçə ilin qonşusuyuq, indiyəcən mən bunda belə şey görməmişəm. Bu yaşında, ölməmişin ənlik-kirşanına baxsan. Belə getsə, bu tezliklə o, ölümə yaxa verənə oxşamır. Qorxuram ki, sənin özünü üzüb haldan salar... Bax də, yenə özün bilən məsləhətdir.

-Əşi, allah bilən məsləhətdir, nə vaxt ölər, ölsün... Amma, mən elə hiss edirəm ki, beş ildən çox çəkməz. Mənə də elə beləsi lazımdır. Təki yola gəlsin, bizim dediklərimizlə razılaşsın, sonrası asan məsələdir,-Cavanşir adlı cavan kişi dillənmişdi.-Məncə nə vaxtsa pullanacağını, mənzil alacağını və ya mənzil almaq növbənin gəlib çatacağını, üzülə-üzülə gözləməkdənsə, bu qarının ölümünü gözləmək daha rahat və daha yaxşıdır.

Alıhüseyn Cavanşirin fikriylə razılaşıb, onu qarıya göstərərək, rusca demişdi:

-Ay qarı, bu cavan oğlan mənim yaxın qohumumdur. Onun sənə yazığı gəlir və elə bununçün də səni öz himayəsinə götürmək istəyir. Sən də, yazıqsan, bəsdir, tənha, ac-susuz yaşadın indiyəcən. Danışın, barışın, bitsin bu məsələ. Öləndə də, heç olmasa səni bir basdıran olar.-Sözün bu yerində Alıhüseyn gülmüşdü. Onun son sözlərindən qarı qətiyyən inciməmişdi və o özü də gülümsəmişdi. Alıhüseynin təklifi onun ürəyincə idi.

Cavanşir Alıhüseynin uzaq qohumu idi. Ali təhsili olmasına baxmayaraq, işsiz gəzib-dolaşan Cavanşirlə görüşündə Alıhüseyn, birdən-birə həmin tənha qarı və onun iki otaqlı, bağ-bağçalı mənzilindən söz açmışdı. Əslində ev alqı-satqısıyla çoxdan məşğul olan Alıhüseyndən Cavanşir özü belə bir xahişi etmişdi ki, rastına, ev-eşiyi olan, amma bir kimsəsi olmayan bir qarı çıxsa onu xəbərdar eləsin. Amma həmin vaxt Alıhüseyn, qonşuluğunda belə bir qarının olduğunu, qohumundan gizləmişdi. Çünki özü çox can atmışdı ki, qarını bir bicliklə yola gətirib, onun mənzilini ələ keçirsin. Amma qarı, niyəsə ondan xoşlanmamış və Alıhüseyni yaxınına buraxmamışdı. Yalnız çox götür-qoydan sonra Alıhüseyn həmin qarını Cavanşirə nişan vermişdi. Baxmayaraq ki,kiçik də olsa, Cavanşirin ev-eşiyi vardı, o Alıhüseyndən bu şad xəbəri alınca, sevincindən onun çiçəyi çırtladı. Bu gün-sabah oğlanları böyüyəcək, hərəsi bir ailənin sahibi olacaqdı. O zaman onlara ev lazım olmayacaqdımı?.. O zaman nəylə, hansı pulla onlara mənzil alacaqdı. Yeganə rahat və münasib yol, məhz belə bir tənha qarının şmründən keçirdi və bu yolun sonundakı rahatlığı, firavanlığı çox aydın görürdü Cavanşir...

Qarı on altı il öncə Cavanşiri oğulluğa götürmüş və rəsmi formada bütün varidatını onun adına keçirtmişdi. Sənədləşmədə o da göstərilmiş və təsdiqlənmişdi ki, qarı ölən günəcən Cavanşir onun qayğısına qalacaq və daima nəzarətdə saxlayacaqdı. O gündən qarının, demək olar ki, xoşbəxt günləri başlanmışdı. O, Cavanşirin oğlanları və xanımıyla qaynayıb-qarışmış, əməlli-başlı onlara isinişmişdi. İnasfən qarnı da, çörəyə doyurdu. Bir sözlə, günlərlə susuz qalb soluxmuş və qəfildən suvarılaraq, təzədən açılan, pardaqlanan dibçək gülü kimi sulanmış, ətə-qana gəlmiş, dirçəlmişdi. Sanki, qarı, səksənə doğru qalxmır, təzədən on beş yaşına qayıtmaq istəyirdi. Bu halla Cavanşirdən,-hər nə qədər onunla isinişməsinə baxmayaraq,-utanır, çəkinir, nazlanırdı.

Vaxt, zaman öz işindəydi.

Cavanşir özü yaşlaşır, saçlarna un kimi ələnirdi dən. Amma qarı, getdikcə cavanlaşırdı. Bu isə daha Cavanşiri narahat eləmirdi. Allah verən ömür idi, hər kəs yaşayırdı. Hərdən qarıdan, onun nə vaxt öləcəyindən söz salanda Cavanşir Alıhüseynə deyirdi: ”Bilmək olmaz, dünyanın işini, a qohum. Bu kötüyün üstə hələ çox şivlər, pöhrələr doğranacaq. Ona görə də, nə tələsir, nə də darıxıram. Allahın işinə əl aparmaq günahdır!.. Mən özüm göydən kağız gətirməmişəm ki!.. Sabah nə baş verəcəyini kim hardan, nədən bilə bilər, axı?”

Aradan on altı il keçmişdi. Qarı günbəgün kökəlirdi. Cavanşir bunu da təbii hal kimi qəbul edirdi. Amma bir gün məlum oldu ki, qarı kökəlmir, sadəcə müəyyən ağrılar, fəsadlar üzündən şişir. Və o yıxılan, bu yıxılan-qarı yatağa düşdü. O gündən də Cavanşirin həyəcanı, narahatlığı başladı və get-gedə dəhşətli həddə çatdı: birdən qarı, qəfil ölər, o, bundan xəbər tutmazdı. O zaman hər şeyin əldən çıxmaq təhlükəsi yaranardı. Amma həmişə ayıq olan Cavanşir bu təhlükəyə yaxa vermədi və lap vaxtında ”Təcili tibbi yardım” çağırdı, qarını əməlli-başlı müayinə elətdirdi. Sonra sahə həkimini götürüb gəldi. Yenə də lazımi diqqət, qayğı və müayinə, müalicə, lazımi sənədləşmələr. Cavanşirdən beş-on manat pul alan sahə həkimi dedi:

-Ola bilsin ki, bu gecə canını tapşırsın! Artıq onun yaşamasına ümid yoxdur!..

-Mən əlimdən gələni elədim. Allah özü şahiddir ki, on altı il ona öz anamdan da artıq qayğıyla yanaşmışam. Qonşular da mənim bu qarıya olan münasibətimdən xəbərdardılar. Siz allah, çalışaın ki, sabah qarı öləndə məni çək-çevirə salan olmasın!-Cavanşir sahə həkimindən xahiş elədi.

-Artıq təhlükə sovuşub. Yəni sizin əlinizdə yetərincə faktlar var. Mənə elə gəlir ki, hər şey ürəyinizcə olacaq,-sahə həkimi dilləndi. Bu an Cavanşir onun cibinə, əlavə olaraq, on manat da basdı. Bundan məmnun olan həkim, qarının ciddi xəstə olması, sağalmasına ümid olmadığı halda, təkrar-təkrar müayinə və müalicə olunduğunu təsdiqləyən bir sənədi imzalayıb, möhürləyərək, Cavanşirə verdi:-Bu sənəd sizin karınıza gələcək. Bundan sonra kimsə sizi, qarının ölümüylə bağlı suçlaya bilməz. Amma, qarı ölər olsa, lazımi yerlərə məlumat vermək mənim vəzifə borcumdur...

Səhər açılırdı. Otağın havası ötən vaxt boyunca daha da ağırlaşır, kəsifləşirdi.

**(ardı növbəti sayımızda)**